

## İNSAN HÜQUQLARI BİNASI RƏQƏMLƏRDƏ

• **Memar:** Lord Riçard Rocers
Memarlar Konsorsiumu: Riçard Rocers, Partnership Ltd London, və Klod Büşe, Strasburq
• **Dəyəri:** 455 milyon fransız frankı

• **Ümumi istifadə sahəsi:** 28000 kvadrat metr, buna
- 860 kv.m böyük məhkəmə iclas zalı
- 520 kv.m kiçik məhkəmə iclas zalı
- 4500 kv.m iclas zalları
- 16500 kv.m otaqlar daxil olmaqla

• **İclas zallarının sayı:** 18, buna
- böyük məhkəmə iclas zalı (243 yerlik + hakimlər üçün 49 yer + ərizəçilər üçün 22 yer)
- kiçik məhkəmə iclas zalı (101 yerlik+ hakimlər üçün 25 yer + ərizəçilər üçün12 yer)
- müşavirə otaqları (47 – 52 yerlik)
- iclas zalları (masa ətrafında orta hesabla 47 yer, üstəgəl arxada 52 yer) daxil olmaqla

• **Otaqların sayı:** 535 otaq (dəyişkəndir)

• **Audio-vizual avadanlıq:** Mətbuat mərkəzi (204 yerlik) Konfrans zalı (104 yerlik)

• **Eyni zamanda:**
- 490 kilometrlik elektrik kabeli
- 5500 işıq lampası
- 10 km-lik boru xəttləri
- 500 metrlik sənəd ötürücü konveyer
- 9 lift / yük liftləri
- 450 ton metal çərçivə
- 1450 ton beton armatur
- 15000 kubmetr beton
- bina fasadı boyunca uzunluğu 2800 metr olan pəncərə dibçəkləri
- 4 istilik nasosu
- 16 ventilyasiya qurğusu
- 125 subpodratçı ilə birlikdə 50 şirkət
- 1500 sahə işçisi
- 800000 saatlıq tikinti işi

## SƏHV SALMAYIN

**Avropa İttifaqının Ədalət Məhkəməsi**
Lüksemburqda yerləşən bu Məhkəmə Avropa İttifaqını təsis edən sazişlərin şərhi və tətbiqini, eləcə də avropa hüququna hörmət edilməsini təmin edir.

**Beynəlxalq Ədalət Məhkəməsi**
Birləşmiş Millətlər Təşkilatının məhkəmə orqanıdır, Haaqada yerləşir.

**İnsan Hüquqları haqqında Ümumi Bəyannamə**
İnsan hüquqlarının qorunmasını beynəlxalq səviyyədə gücləndirmək məqsədilə Bəyannamənin mətni 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmişdir.

**Əsas Hüquqlar Xartiyası**
Avropa İttifaqının insan hüquqları və əsas azadlıqlar haqqında mətni 2000-ci ildə qəbul olunmuşdur.



## ƏLAVƏ MƏLUMATLAR

**European Court of Human Rights**
**Public Relations**
**67075 Strasbourg cedex**
**France**
**www.echr.coe.int**

AZE



# MƏHKƏMƏ

# haqqinda qisa məlumat

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE




# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

1959-cu ildə təsis olunmuş Avropa İnsan Hüquqları Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasında təsbit edilən mülki və siyasi hüquqların pozulmasını iddia edən fərdi şəxs və ya Dövlətin şikayət ərizələri əsasında qərarlar verən beynəlxalq məhkəmədir.

1998-ci ildən bəri məhkəmə daimi olaraq fəaliyyət göstərir və fərdi şəxslər buraya birbaşa müraciət edə bilərlər.

Məhkəmə təsis olunduğu müddətdən indiyə qədər yüz minlərlə şikayət ərizəsinə baxmışdır. Məhkəmənin qətnamələri cavabdeh dövlətlər üçün məcburidir və bu qətnamələr bir çox sahələrdə hökümətlərin öz qanunvericilik və inzibati praktikalarına dəyişiliklər etməsinə səbəb olmuşdur. Məhkəmə təcrübəsi yeni problemlərin həll edilməsi və Avropada qanunun aliliyinin və demokratiyanın möhkəmləndirilməsi üçün Konvensiyanı müasir, dinamik və güclü bir mexanizmə çevirmişdir.

Şəkli bütün dünyada tanınan Strasburqda yerləşən İnsan Hüquqları Məhkəməsinin binası Britaniyalı memar Riçard Rocers tərəfindən 1995-ci ildə layihələndirilmişdir. Bu binada Məhkəmə Konvensiyanı ratifikasiya etmiş Avropa Şurasının 46 üzv Dövlətində 700 milyon avropalının insan hüquqlarının qorunmasına nəzarət edir.

# ƏSAS TARİXLƏR

**5 may 1949-cu il**
Avropa Şurasının yaradılması

**4 noyabr 1950-ci il**
Konvensiyanın qəbul edilməsi

**3 sentyabr 1953-cü il**
Konvensiyanın qüvvəyə minməsi

**21 yanvar 1959-cu il**
Avropa Şurasının Məsləhətçi Assambleyası tərəfindən Məhkəmənin ilk üzvlərinin seçilməsi

**23-28 fevral 1959-cu il**
Məhkəmənin ilk sessiyası

**18 sentyabr 1959-cu il**
Məhkəmə özünün Məhkəmə Qaydalarını qəbul edir

**14 noyabr 1960-cı il**
Məhkəmə "Louless (Lawless) İrlandiyaya qarşı" adlı ilk qətnaməsini çıxarır

**1 noyabr 1998-ci il**
"Yeni Məhkəmə"-nin yaradılmasını nəzərdə tutan Konvensiyaya dair 11 saylı Protokolunun qüvvəyə minməsi

**1 iyun 2010-cu il**
Məqsədi Məhkəmənin uzun müddətli səmərəli fəaliyyətini təmin etmək olan 14 saylı Protokolun qüvvəyə minməsi

**1 avqust 2018-ci il**
Məhkəməyə məsləhət rəyləri vermək səlahiyyəti verən Konvensiyaya dair 16 saylı Protokolun qüvvəyə minməsi



# AVROPA İNSAN HÜQUQLARI KONVENSİYASI



Avropa İnsan Hüquqları Konvensiyası Avropa Şurasına üzv olan dövlətlərin üzərinə yalnız öz vətəndaşlarının deyil, həmçinin onların yurisdiksiyası altında olan hər kəsin əsas mülki və siyasi hüquqlarının qorunması öhdəliyini qoyan beynəlxalq müqavilədir. 4 noyabr 1950-ci ildə Romada imzalanmış Konvensiya 1953-cü ildə qüvvəyə minmişdir

# TƏMİNATLAR VƏ QADAĞALAR



**Konvensiya xüsusilə aşağıda sadalanan hüquqları qoruyur:**

- yaşamaq hüququ,
- ədalətli məhkəmə araşdırması hüququ,
- şəxsi və ailə həyatına hörmət hüququ,
- sərbəst fikir ifadə etmək azadlığı,
- sərbəst fikir ifadə etmək azadlığı,
- fikir, vicdan və din azadlığı, və
- mülkiyyətin qorunması.

**Konvensiya xüsusilə aşağıda sadalananları qadağan edir:**

- işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı,
- köləliyi və məcburi əməyi,
- ölüm cəzasını,
- əsassız və qanunsuz həbsi, və
- Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların istifadəsində ayrı-seçkiliyi.